Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

"Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb.
Nəşrdəki məlumatlar Avropa İttifaqının rəsmi mövqeyini əks etdirmir
və məzmuna görə tam məsuliyyəti Dövlət Vergi Xidməti daşıyır".

!

Lifletdəki "Siz"ə istinadlar vergi ödəyicilərinə, "biz"ə istinadlar isə İqtisadiyyat Nazirliyi və onun nəzdində fəaliyyət göstərən Dövlət Vergi Xidmətinə aiddir.

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

## Vergi Ombudsmanı

Azərbaycanda vergi ödəyicilərinin hüquqlarının pozulmasının qarşısının alınması və onların pozulmuş hüquqlarının bərpası məqsədilə Vergi Ombudsmanı yaradılıb. Vergi Ombudsmanının rolu vergi qərarlarının vergi ödəyiciləri üçün ədalətli və qanuni şəkildə qəbul olunmasını təmin etməkdən ibarətdir.

## Vergi Ombudsmanının rolu nədən ibarətdir?

Vergi ödəyicilərinin vergi qanunvericiliyinə əsasən bir çox hüquqları və vəzifələri vardır, məsələn, onlara təsir edən vergi orqanlarının qərarlarından inzibati qaydada və ya məhkəməyə şikayət etmək hüququ. Vergi Ombudsmanı vergi ödəyicilərinin hüquqlarının qorunmasına kömək edir.

Vergi Ombudsmanı Dövlət Vergi Xidməti tərəfindən qəbul olunmuş bəzi qərarları təhlil edir, şikayətlər və maraqlı tərəflərin rəyləri əsasında vergi inzibatçılığının ədalətliliyinin artırılması üçün təkliflər verir. Bu təkliflər vergi ödəyicilərinin xeyrinə xidmət edir.

Vergi Ombudsmanının olması ən yaxşı beynəlxalq təcrübədir, çünki Vergi Ombudsmanı institutları vergi ödəyicilərinin şikayətləri ilə məşğul olmaq və vergi sistemini təkmilləşdirmək üçün zəruri olan ixtisaslaşmış təcrübəyə malikdir.

Azərbaycanda Vergi Ombudsmanı təyin olunduğu 2019-cu ildən indiyədək 110 müraciətin həllinə köməklik göstərib, vergi ödəyiciləri və sənaye qrupları ilə 56 görüş keçirib.

Vergi Ombudsmanının, əməliyyat-axtarış, təhqiqat və istintaq tədbirləri istisna edilməklə, vergi orqanlarından və vergi ödəyicilərindən lazımi sənədləri və məlumatları almaq hüququ vardır.

O, iqtisadiyyat nazirinə Vergi Məcəlləsinin təkmilləşdirilməsi ilə bağlı təkliflər verə bilər.

!

Siz taxes.gov.az saytında vergilərlə bağlı yerləşdirilmiş materiallarla tanış ola, habelə "195-1" Çağrı Mərkəzinin, vergi orqanlarının əməkdaşları tərəfindən qanunvericiliyin tələbləri haqqında maarifləndirici məlumatlar əldə edə bilərsiniz. Siz şikayət verməzdən əvvəl peşəkar mütəxəssislərlə məsləhətləşmək imkanından istifadə edə bilərsiniz.

DÖVLƏT
VERGİ
XİDMƏTİ

# Vergi mübahisələrinin həlli

## Şəffaflığa və vergi mübahisələrinin ədalətli həllinə sadiqliyimiz

Bizim vergi sistemimiz ədalətlilik üzərində qurulub

- Vergi sistemimiz vergi qanunvericiliyinə könüllü riayət etmək üzərində qurulub.
- Biz başa düşürük ki, əksər vergi ödəyiciləri vergi qanunvericiliyinə əməl etməyə çalışırlar.
- Öhdəliklərinizi yerinə yetirməyə kömək məqsədilə maarifləndirici məlumatlar dərc edirik.
- Vergilərinizi hesablamağa kömək edəcək kalkulyatorlarımız mövcuddur.
- Vergi ödəyicilərinə xidmət göstərən əməkdaşlarımız Sizə vergiləri necə ödəməklə bağlı yardımçı olur.
- Vergilərlə bağlı kömək məqsədilə Sizin mütəxəssis (nümayəndə) cəlb etmək hüququnuz var.
- Biz vergidən yayınanları müəyyən etmək və nəzarətə götürmək üçün analitik yanaşmalardan istifadə edirik.

## Vergi mübahisələrinin həllinin üstünlükləri

Əgər bizim qərarımız ilə razı deyilsizsə, Siz həmin qərardan şikayət etmək hüququna maliksiniz. Vergi mübahisələrinin həllinin effektiv sistemi vergi ödəyiciləri ilə yanaşı, dövlət vergi orqanlarına da kömək edir. Dünya üzrə qabaqcıl vergi inzibatçılığına uyğun olaraq, vergi istemi də mübahisəli məsələlərin həlli məhkəməyə və ya DVX-yə müraciət etmək imkanı da daxil olmaqla, bir neçə şikayət qaydasını nəzərdə tutur.

Əsaslı müraciətlər bizə qanunvericiliyin tətbiqi ilə bağlı bəzi problemlərin həlli, o cümlədən qanunvericilikdə dəyişikliklərin edilməsinin zəruriliyi, kadr hazırlığı və digər məsələlərbarədə məlumat verir.

## Hüquq və öhdəlikləriniz

Vergi Məcəlləsi ilə vergi ödəyiciləri üçün müəyyən edilmiş vəzifələr Dövlət Vergi Xidməti tərəfindən təqdim maarifləndirici nəşrlərdə və təlimatlarda izah olunur. Vergi Məcəlləsi ilə vergi ödəyicilərinin hüquqlarının təminatı üçün bir çox müddəalar müəyyən edilmişdir. Məsələn:

- Vergilər haqqında qanunvericiliyinin hər hansı müddəası ziddiyyətli və ya anlaşılmaz olduğu halda, o, vergi ödəyicisinin xeyrinə şərh edilməlidir.
- Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada və ya məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təqsiriniz sübuta yetirilənədək vergi qanunvericiliyinin pozulmasında təqsirsiz hesab edilirsiniz.

Vergi orqanlarının qərarlarından, habelə vergi orqanlarının vəzifəli şəxslərinin Sizə qarşı hərəkət və hərəkətsizliyindən inzibati və ya məhkəmə qaydasında şikayət etmək və **Sizin adınızdan səlahiyyətli nümayəndənin çıxış etməsini təmin etmək hüququnuz var.**

## Vergi mübahisələrinin ədalətli həllinə sadiqliyimiz

Biz həmişə barənizdə qəbul edilmiş inzibati qərarları Sizə izah edirik, şikayət hüququnuz və prosedurlar barədə məlumatlandırırıq.

Biz qarşımıza vergi ödəyicilərinin qərarlardan şikayət etmələrini asanlaşdırmaq məqsədi qoymuşuq. **Qanunvericiliyin tələblərini və şikayətin verilməsi proseslərimizi izah edirik və taxes.gov.az saytımızda daimi olaraq ətraflı məlumat veririk.** Şikayəti elektron kabinetiniz, poçt və ya şəxsən təqdim etməyin bir çox yolu var.

## Azərbaycanda vergi mübahisələrinin həlli sistemi necə işləyir

Vergi ödəyiciləri öz vergiləri ilə bağlı bir neçə müraciət (apellyasiya) prosesinə çıxış əldə edə bilərlər. Bunlara inzibati şikayətlər prosesi (burada şikayətlər adlanır), İqtisadiyyat Nazirliyinin Apellyasiya Şurasına müraciətlər və inzibati məhkəməyə müraciətlər daxildir.

### Nə vaxt şikayət edə bilərsiniz?

Şikayət hüququ geniş əhatə dairəsinə malikdir.
Vergi Məcəlləsində göstərilir ki, Siz öz hüquqlarınızın pozulduğunu bildiyiniz və ya bilməli olduğunuz gündən 3 ay müddətində vergi orqanlarının qərarlarından (aktlarından), habelə vergi orqanlarının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edə bilərsiniz.

## Şikayəti həll etmək üçün hansı imkanlar mövcuddur?

Vergilərin və faizlərin hesablanması, habelə maliyyə sanksiyalarının tətbiqi ilə bağlı qərardan şikayət vermək üçün üç əsas vasitə var:

- İnzibati şikayətlərə baxılması Baş İdarəsinə (İŞBİ) şikayət;
- İqtisadiyyat Nazirliyi yanında Apellyasiya Şurasınamüraciət;
- İnzibati məhkəmələrə müraciət.

Siz həm Dövlət Vergi Xidmətinə, həm də məhkəməyə müraciət edə bilərsiniz, **lakin hər ikisinə eyni vaxtda müraciət etdikdə "İnzibati icraat haqqında" Qanunun tələblərinə əsasən Dövlət Vergi Xidmətində müraciət üzrə icraata xitam veriləcək.**

## Bu proseslər necə işləyir?

Şikayətlər üzrə Prosesin mərhələləri prosesdən asılı olaraq dəyişir. Ancaq ümumi olaraq aşağıdakıları bilmək lazımdır:

- Şikayətə baxılması prosesində səlahiyyətli nümayəndə ilə təmsil olunmaq hüququnuz var. Bu zaman Sizin nümayəndəniz vergi mühasibi və ya hüquqşünas kimi prosesdə çıxış edə bilər.
- Şikayətinizi izah etmək imkanınız olacaq. İddia etdiyiniz məsələlər müraciətinizdə öz əksini tapmalıdır. Şikayətin təmin olunub-olunmaması təqdim etdiyiniz sübutlardan asılıdır.
- Sizə qəbul edilmiş qərar və onun səbəbləri, eləcə də şikayətinizintəmin edilmədiyi halda şikayət vermək imkanları barədə məlumat veriləcək.